**Hörmətli Tələbələr,**

"Erasmus+ KA171" mobillik proqramı çərçivəsində Türkiyənin Afyon Kocatəpə Universiteti LDU tələbələri üçün təqaüd proqramını açıq elan edib. Proqrama əsasən, tələbələr Afyon Kocatəpə Universitetində təqaüdlə bir semestrlik təhsil ala bilərlər. Mübadilə 2024/2025-ci tədris ilinin 2-ci semestri (fevral 2025 –iyul 2025) üçün nəzərdə tutulub.

**Müraciət üçün şərtlər:**

- Yalnız "**İngilis dili**, **Menecment** və **Baytarlıq"** ixtisasları üzrə təhsil alan tələbələr proqramda iştirak edə bilərlər.
- İngilis dili minimum B1 səviyyəsində olmalıdır.

**Tələb olunan sənədlər**

- Ərizə
- Transkript – (ÜOMG 80 baldan yuxarı olanlar)

**Qeyd:** Bütün xərclər (gediş-gəliş, gündəlik və otel xərcləri) Erasmus+ proqramı tərəfindən qarşılanacaqdır.

Müsabiqədə iştirak etmək istəyən tələbələrdən sənədləri 25.11.2024-ci il tarixinədək:

int-rel@lsu.edu.az elektron poçt ünvanına və ya müvafiq dekanlıqlara təqdim olunmalıdır.